Adımız məfkurəmizdir
5 – 11 dekabr 2023-cü il
Türküstan
www.turkustan.az



Aydın Qasımlı
Filologiya üzrə fəlsəfə doktoru
Bizim yazar



# Tanrı dağın qucağında – Qırğız Türkləri

**Qədim Qırğızlar ilin müəyyən günlərində toplanar, şənlik edər, musiqiçilər musiqi səsləndirər, mahnı oxuyar, rəqs edər, içki içər, Şamanlarını dinləyərdilər. Şamanları onlara il boyu nələrin baş verəcəyi haqqında məlumatlar verər, onlar da Şamanlarının dediyinə inanardılar. Şaman- ların tövsiyyəsi olmadan ordunu toplamaz və savaşa get-məzdilər. Onlar Şamanların verdiyi məlumatların Tanrıdan gəldiyinə inanardılar. Qırğız Şaman inancı da digər Türk-lərdəki kimi olmuşdur. Onlar da xəstə olduqda, uşaq dünya- ya gətirdikdə və s. Şaman çağırardılar...**



*Tarixi Böyük Türküstanın yerli xalqlarından biri də Qırğız Türkləridir. Çin sərhəddində yerləşən Türk ölkəsi Qırğızıstan Qırğız Türklərinin yaşadığı tarixi Türküstanın bir parçasıdır.*

*Qədim Çin və İslam müəllifləri Qırğızları 'qumral saçlı, mavi gözlü və uzun boylu" kimi təsvir etmişlər.*

*VIII əsrə aid bir Tibet mənbəsinə görə də 'Uyğurlara bəzən dost, bəzən düşmən olan Qırğızlar mavi gözlü və qızıl saçlıdırlar" (Bax: Prof.Dr. Osman Turan, Türk Cihan hakimiyyəti Məfkurəsi Tarihi, Ankara, 1968, səh. 27).*

Tarixi mənbələrə əsaslanaraq tədqiqatçılar həm də belə bir fikir irəli sürürlər ki: "Şimalda yaşayan Qırğız, Peçenek, Qıpçak və Bulqarlar ağ, cənubdakılar isə iqlim şəraitinə görə əsmər rəngdə olmuşlar" (Bax: Osman Turan, göstərilən əsəri, səh. 27-28).

Çin mənbəsi olan "Tansu"ya görə "Qırğızlar hər fəsli üç ay hesab etmiş və onları on iki heyvan adı ilə adlandırıb təqvim kimi istifadə etmiş, ilkin başlanğıcına da "Mo-chenq ay" yəni "Buz ay" demişlər" (Bax: Osman Turan, Oniki hayvanlı Türk Takvimi, səh. 50, 52).

Qədim Qırğızlar ilin müəyyən günlərində toplanar, şənlik edər, musiqiçilər musiqi səsləndirər, mahnı oxuyar, rəqs edər, içki içər, Şamanlarını dinləyərdilər. Şamanları onlara il boyu nələrin baş verəcəyi haqqında məlumatlar verər, onlar da Şamanların dediyinə inanardılar. Şaman- ların tövsiyyəsi olmadan ordunu toplamaz və savaşa get-məzdilər. Onlar Şaman-ların verdiyi məlumatların Tanrıdan gəldiyinə inanardılar. Qırğız Şaman inancı da digər Türk-lərdəki kimi olmuşdur. Onlar da xəstə olduqda, uşaq dünya- ya gətirdikdə və s. Şaman çağırardılar.

Qədim qırğızlar islamdan öncə ölülərini hindlilər kimi yandırardılar. İslamı qəbul etdikdən sonra isə onu dəfn etməyə başladılar.

Böyük Hun İmperatorluğu dağıldıqdan sonra meydana çıxan Ağ Hun dövlətini Göy Türklər, Göy Türk dövlətini Uyğurlar, Uyğur dövlətini isə Qırğızlar əvəz etdi.

Qədim Çin mənbələrində adı keçən Türk boyları, o cümlədən də Qırğızlar köçəri Türk tayfaları sayılsalar da bəzi Çin qaynaqlarında göstərilir ki: "hər Türk qəbiləsinin özlərinəməxsus bir ərazisi var" (Bax: Osman Turan, Göstə- rilən əsəri, səh. 119).

Hun İmperatorluğu yıxıldıqdan sonra Qırğızlar bir müddət "Xakas" adlandırılsalar da sonradan yenə də tarix səhnəsində Qırğızlar kimi tanınmışlar.

Qədim Göy Türk yazılarında Qırğızlar ən qədim Türk qövmlərindən biri kimi göstərilmişdir.

*Tarixdə ilk Qırğız dövləti eradan əvvəl ikinci yüzildə indiki Qırğızıstan ərazisində qurulmuşdur. İlk əvvəl Böyük Hun İmrəratorluğunun tərkibində yaşayan Qırğızlar İmpe-ratorluğun çöküşündən sonra öz dövlətlərini qurmuşlar. V əsrdə meydana çıxan Göy Türk dövləti ərazilərini genişlən- dirərək Qırğızları da özlərinə tabe etmiş, bu dövlət yıxılana qədər Göy Türklərin hakimiyyəti altında qalmışlar. İki yüz ildən sonra yıxılan Göy Türk İmperatorluğundan sonra Qırğızlar yenidən öz dövlətlərini qurmağa çalışmış və öz müstəqilliklərini qorumaq üçün Uyğurlarla uzun müddət müharibə şəraitində yaşamışlar.*

Qırğızlar ikinci Göy Türk Xaqanlığı dövründə təkrar 758-ci ildə Uyğur Xaqanlığına bağlanmışlar. Göy Türk xaqanları, xüsusilə ikinci Göy Türk xaqanlığının qurucusu Bilgə Xaqan tabeliyində olan və hətta onlara qarşı üsyan edən Oğuz, Türkeş və Qırğızları Türk kimi göstərir və onla- rı "Öz Türk millətim" deyə adlandırır, "Yanıldıqları üçün yazıq etdiklərini" bildirirdi (Bax: Osman Turan, Göstərilən əsəri, səh. 22, 89).

Nəhayət Qırğızlar 840-cı ildə şiddətli hücuma keçərək Uyğur dövlətini yıxmış, Ötükəndə öz dövlətlərini qurmuş- dular. Qırğızlarla Uyğurların - bu iki Türk xalqının bir-biri ilə uzun müddətli çatışmaları qonşu Çinin işinə yaramışdı. Fürsətdən istifadə edən Çinlilər daha geniş əraziləri zəbt edərək Qırğızları öz ölkələrini belə tərk edib köçəri həyat sürməyə məcbur etmişlər. 920-ci ildə Monqolustanı ələ keçirən Kitanlar (Çində Liao sülaləsi - A.Q.) Qırğızları Ötükən bölgəsindən də çıxarmağa müvəffəq olmuşdular.

*Daha sonra 1207-ci ildə Çingiz Xan Monqolustanı və bütövlükdə Asiyanın böyük bir qismini öz hakimiyyəti altında birləşdirmək məqsədi ilə Merkit və Naymanlarla yanaşı Qırğızları da öz itaəti altına almışdı. 1218-ci ildə Moğollara qarşı çıxdıqları üçün Çingiz xanın oğlu Cuci tərəfindən məğlub edilən Qırğızların ondan sonra artıq xaqanları olmamış və onlar iki hissəyə ayrılaraq bir qismi də Tolu ulusuna tabe tutulmuşdu. Sonra onlar Tanrı Dağla- rının cənub-qərb bölgəsinə köç edərək qısa bir dövrdə Xokand dövlətinin yönətimi altında olmuş, bir müddət sonra isə sayları artdığından Xokand dövlətinin yönətimini ələ keçirmiş və bu dövləti Qırğız dövlətinə çevirmişdilər.*

*XVIII əsrdə Xokand dövlətinin Qırğızların yönəti-mində gücləməsi Buxara Əmirliyini narahat etmiş və XIX əsrin əvvəllərində iki Türk xanlığı arasında başlanan çəkiş- mə nəticəsində hər iki xanlıq zəifləmiş, fürsətdən istifadə edən çar Rusiyası bütün bölgəni işğal etmişdi.*



(ardı gələn sayımızda)

Oxu, oxut, abunə ol!